

# Qələbəmizin memarı, suverenliyimizin qarantı

**Bu gün Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ad günüdür. Uzun illərdir aktiv siyasətlə məşğul olan dövlət başçısı Azərbaycanın təhlükəsizliyinin, müstəqilliyinin və inkişafının qarantıdır.**

2003-cü il oktyabrın 1-də Ümummilli Lider Heydər Əliyev xalqımıza müraciət edərək qarşıdan gələn prezident seçkilərində onun siyasi varisi, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırdı. Ulu Öndər cənab İlham Əliyevin yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət olduğunu qeyd edərək, dövlətimizin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəyini bəyan etdi. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına tarixi müraciətində bildirmişdi.

Xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə Ulu Öndərin layiqli varisi İlham Əliyevi dəstəkləyərək prezident seçdi. Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Bütün bunlara görə idi ki, 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində İlham Əliyev inamlı qələbə qazandı.

Prezident İlham Əliyevin fəaliyyətində xüsusilə mühüm yer tutan nailiyyətlər arasında daha qürurvericisi işğal altındakı torpaqlarımızın azad olunması və son antiterror tədbirləri nəticəsində erməni separatçılarının tam tərk-silah edilməsi, Qarabağda erməni separatçılığına son qoyulması, Xankəndi, Əsgəran, Ağdərə, Xocavənd şəhərlərinin azad edilməsi və əli Azərbaycan xalqının qanına batmış terrorçuların həbs olunaraq Bakıya gətirilməsidir. Mübaliğəsiz demək olar ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız müzəffər xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni geostrateji reallıqlar yarandı. Bununla da Prezident İlham Əliyev Ümummilli Liderin xalqa müraciətində qeyd etdiyi taleyüklü məsələni başa çatdırdı.

Tarixə nəzər salsaq görərik ki, ötən son 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində nə qədər ardıcıl, əhəmiyyətli işlər görülüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız cəmi 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı.

Müharibədə məğlub olmuş Ermənistan 10 noyabr tarixində kapitulyasiya aktına imza atmaqla özünün təslimolma sənədini imzaladı. Məhz həmin sənəddə Ağdam, Laçın və Kəlbəcər rayonlarından işğalçı qoşunların dərhal və qeyd-şərtsiz çıxarılması şərt olaraq qoyuldu. Nəticədə bir güllə belə atılmadan bu rayonlarımız işğaldan azad olundu.

2020-ci ilin 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın bütün şərtlərinə əməl etməyən Ermənistan Azərbaycan torpaqlarında yaratmış olduğu qondarma rejimi ləğv etməyərək, "boz zona"nın qalması üçün bütün imkanlarını səfərbər etdi. Ermənistanın növbəti dəfə razılaşdırılmış şərtlərə riayət etməməsi isə 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə yekunlaşdı və qondarma rejim birdəfəlik ləğv olundu.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir bacarığını - sərkərdəlik məharətini üzə çıxardı. Ali Baş Komandan əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi.

Tarixi Qələbəmizi şərtləndirən ən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. 44 gün davam edən Zəfər yürüşümüz zamanı dövlətimizin başçısı xarici media vasitələrinə 30-a yaxın müsahibə verərək əsl həqiqətləri dünyaya çatdırdı.

Dövlətimizin başçısı bu müsahibələrlə həm də Ermənistanın təcavüzü, törətdiyi cinayətlər barədə beynəlxalq ictimaiyyəti məlumatlandırdı. Döyüşü hərbi peşəkarlıqla idarə edən məharətli sərkərdə, beynəlxalq ictimaiyyətə reallıqları çatdıran peşəkar diplomatın bütün sahələrdə idarəetməni uğurla həyata keçirməsi qələbəmizi şərtləndirən başlıca amil oldu.

Bu gün ölkəmiz yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biridir. İstər iqtisadi, istər siyasi, istərsə də uğurlu idarəçilik modelinin tətbiqində Azərbaycan fenomeni dünyada öz sözünü deməkdədir. Azərbaycan dünyada transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, həmçinin etibarlı tərəfdaş kimi tanınır.

Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard dollar investisiya qoyulub. Bu prosesin sürətlə davam etməsi və həyata keçirilən meqalayihələrin əsas istiqaməti də məhz qeyri-neft sektorunun inkişafı ilə bağlıdır. Ölkəmiz üçün əsas prioritetlərdən biri iqtisadiyyatın böyüməsi, yoxsulluğun azaldılmasıdır.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub kimi beynəlxalq logistik məkana çevrilib və dövlətimizin bu sahədəki rolu olduqca mühümdür. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu ölkəmizin tarixi uğurlarıdır.

İlham Əliyev Azərbaycanı dünyanın idman ölkəsinə çevirmişdir. Onun 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə bu sahədə genişmiqyaslı işlərə start verildi. İdmanın inkişafını diqqətdə saxlayan dövlət başçısının siyasəti nəticəsində bu sahədəki nailiyyətlərimiz gündən-günə artdı. İdmanda atılan ən mühüm addım isə beynəlxalq yarışların və olimpiadaların ölkəmizdə keçirilməsi idi. 2015-ci ildə I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi isə ölkəmizi dünyanın mərkəzinə gətirdi.

Daha sonra IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin və dünyanın diqqətini bir daha rəsmi Bakıya yönəltdi. "Formula-1" və digər çempionatlar və yarışlar isə bir daha bizi dünyada idman ölkəsi olaraq tanıtdı. Bu gün Azərbaycanın bütün sahələrdə olduğu kimi, idmanda da olan uğurlarında məhz cənab Prezidentin imzası var.

Dekabrın 21-də Xankəndi şəhərində futbol üzrə Azərbaycan Kubokunun səkkizdəbir final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən futbol matçını Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin də izləməsi dövlət başçısının idmana verdiyi önəmin təcəssümüdür. Bu oyun 30 ildə erməni separatizminin mərkəzi olmuş Xankəndi şəhərinin stadionunda cəmi 4 il əvvəl "Qarabağ Ermənistandır və nöqtə" deyənlərə Azərbaycanın verdiyi ən təsirli mesaj idi. Xankəndi stadionu vaxtilə özündə separatçı rejimin simvollarını daşıyıb. Lakin indi həmin simvollar rejimlə birlikdə tarixin zibilxanasına atılıb. Stadion iki aya kimi qısa müddət ərzində təmir olunaraq istifadəyə verilib.

Xankəndidəki futbol matçından əvvəl çıxışında dövlət başçısının Ağdam şəhərində yerləşən "İmarət" stadionunun da yenidən inşa olunacağını bildirməsi ölkəmizin bütün idman ictimaiyyətini sevindirdi.

Hər il olduğu kimi, bu il də dövlət başçısı idmançılarla, idman xadimləri ilə görüşüb onları fəxri adlarla, fəxri diplomlarla təltif edərək, təqaüd və mənzillərlə təmin etdi. Bu dəfə idmançılarla görüş Xankəndidə keçirildi. Bu yüksək diqqət və qayğı idman ictimaiyyətinin üzərinə həm də böyük məsuliyyət qoydu.

Prezident İlham Əliyevin gündəliyində xüsusilə mühüm yer tutan məsələlərdən biri də gənclər siyasətidir. Dövlət başçısının diqqət və qayğısı sayəsində Azərbaycan gəncliyinin inkişafı üçün dövlət proqramları, gənclərin inkişaf strategiyası, eləcə də xaricdə təhsillə bağlı müxtəlif dövlət proqramları uğurla icra edilir. Bu siyasət nəticəsində ölkəmizdə gənclərlə iş sahəsində ciddi keyfiyyət dəyişiklikləri əldə edilib, gənclərin ictimai həyatda rolu önəmli dərəcədə artıb.

Gənclər sahəsində aparılan genişmiqyaslı fəaliyyətdən biri də dövlət başçısı tərəfindən Gənclər Fondunun təsis edilməsidir. Eləcə də "Gənclər siyasəti haqqında", "Könüllü fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiq edilmişdir. Hər il 10 nəfər gəncə dövlət başçısı tərəfindən fərdi təqaüd verilir. Gənclərin ictimai həyatda iştirakını təmin etmək məqsədilə gənclər mərkəzləri, gənclər evləri, olimpiya idman mərkəzləri fəaliyyət göstərir. Gənclər üçün təsis olunmuş Prezident mükafatı hər il müxtəlif sahələrdə fərqlənən gənclərə təqdim olunur ki, bu da öz növbəsində gənclər üçün xüsusi stimul təşkil edir.

Gənclər də öz növbəsində dövlətin onlar üçün yaratdığı imkanlardan səmərəli istifadə edirlər. Azərbaycan gəncliyi istər Vətən müharibəsində, istərsə də ondan sonrakı dövrdə üzərinə düşən tarixi vəzifələrin öhdəsindən layiqincə gəlmişdir.

Gənclər Azərbaycan həqiqətlərinin, torpaqlarımızın azad edilməsi və suverenliyimizin bərpası ilə bağlı mövqeyimizin dünyaya çatdırılmasında da əhəmiyyətli rol oynayırlar. Bu, beynəlxalq səviyyədə Azərbaycanın yumşaq gücünün formalaşması baxımından zəruridir.

Gənclərimizin son illərdə idman sahəsində və beynəlxalq yarışlarda qazandığı uğurlar da göz qarşısındadır. Bu uğurların da təməli dövlətin gənclər siyasəti ilə bağlıdır. Prezident İlham Əliyev haqlı olaraq vurğulayır ki, gənclərin fiziki tərbiyəsi və sağlamlığı dövlətimizin əsas prioritetlərindəndir.

Bu gün dünyada söz sahiblərindən birinə çevrilən ölkəmiz həm də təşkil etdiyi beynəlxalq tədbirlərin möhtəşəmliyi ilə diqqət çəkir. Belə tədbirlərdən növbətisi gələn il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 olacaq. Beynəlxalq təşkilatlarda olduqca aktiv iştirak edən və dünyada beynəlxalq təşəbbüslərin lideri olaraq tanınan Azərbaycanın belə bir tədbirə evsahibliyi etməsi ölkəmizin artan nüfuzunun göstəricisidir.

Qoşulmama Hərəkatı kimi 120-dən artıq ölkəni özündə birləşdirən bir təşkilata Azərbaycanın uğurla rəhbərlik etməsi, məhz təşkilata üzv dövlətlərin birgə qərarı ilə sədrliyinin 1 il uzadılması ölkəmizin beynəlxalq aləmdə qazandığı nüfuzu dünyaya göstərir. Azərbaycanın Qoşulmama Hərəkatına uğurla rəhbərlik etdiyi 4 il Hərəkatın işinə verdiyi xüsusi töhfələrlə əlamətdardır. Dövlət başçısının təşəbbüsü ilə Hərəkatın Parlamentlər Şəbəkəsinin yaradılması isə Hərəkata üzv dövlətlərin qanunverici hakimiyyətini öz çətiri altında birləşdirir.

Bütün bunlar Prezident İlham Əliyevin uğurlu idarəetməsi, xalqımızın dövlət başçısının ətrafında sıx birliyi nəticəsində mümkün olub.

Qələbəmizin memarı, suverenliyimizin qarantı, şəhid ailələrinin və qazilərin, sosial qayğıya ehtiyacı olan şəxslərin ən əzizi, xalqımızın sevimli Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə ad günü münasibətilə uzun ömür, cansağlığı, möhtəşəm və yorulmaz fəaliyyətində uğurlar arzulayırıq!

*Adil ƏLİYEV,*
*Milli Məclis Sədrinin müavini*